1_Layout 1 28.06.2018 18:41 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 13 (529)

30 iyun 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ BAKIDA TƏNTƏNƏLİ HƏRBİ PARAD KEÇİRİLİB

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.***









**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.**

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda, həmçinin, Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azadlıq meydanına toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşılayıblar.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak edən şəxsi heyəti salamlayıb.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycan Respublikasının Dövlət Himnini ifa edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söyləyib.

Azərbaycan xalqını Azərbaycan Ordusunun 100 illiyi münasibətilə təbrik edən Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar, yeni nailiyyətlər arzulayıb. Qeyd edib ki, Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir: “Bu siyasət bu gün də davam etdirilir. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır”.

Dövlətimizin başçısı vurğulayıb ki, 2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində: “Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir”.

Silahlı Qüvvələrin Ali Baş Komandanı əminliklə deyib ki, bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır: “Ordu quruculuğu əsas vəzifəmizdir. Güclü ordunu yaratmaq üçün güclü iqtisadiyyatımız olmalıdır. Biz bu istiqamətdə çox fəal işləmişik. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır. İqtisadi potensialına görə Azərbaycan bu gün özünü çox rahat hiss edir. Bütün aparıcı beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən qabaqcıl yerlərdədir. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında üçüncü yerdədir. Biz öz hesabımıza yaşayırıq, heç bir yerdən yardım almırıq. Buna ehtiyac da yoxdur. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran əsas məqsədlərin həllinə yönəldirik. Onların arasında ordu quruculuğu birinci yerdədir.

2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artmışdır. Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılmışdır. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilib. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq. Beləliklə, bu məsələ də öz həllini tapmış olacaq. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Qəbul edilmiş qərar əsasında 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Bu gün bizim hərbi hissələrimizdə 20 mindən çox mülki vətəndaş çalışır. Əvvəllər bu işlərdə əsgərlər işləyirdilər. Biz əsgərləri məişət işlərindən azad etdik. Eyni zamanda, mülki vətəndaşlar üçün 20 mindən çox iş yeri yaradılmışdır”.

Ordumuzun ən müasir silahlarla, texnika ilə təchiz edildiyini bildirən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar da ordumuzun potensialını gücləndirir: “Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq. Həmçinin, Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Bu gün bu silahların kiçik bir hissəsi paradda nümayiş etdiriləcək”.

Ordumuzun döyüş qabiliyyətinin ən yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, iki il bundan əvvəl qazanılmış aprel döyüşləri bizim şanlı qələbəmizdir. O, Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağının bu bayram ərəfəsində - keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildiyini də qeyd edib: “Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin. Biz istəyirik ki, münaqişə sülh yolu ilə həll olunsun və Azərbaycanın apardığı siyasət bunun əyani sübutudur”.

Prezident İlham Əliyevin çıxışından sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başlayıb.

Meydana əvvəlcə Azərbaycan Respublikasının Dövlət Bayrağı gətirilib.

Dövlət Bayrağının ardınca quruda, dənizdə və havada müqəddəs Vətənin keşiyini çəkən Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqlarını aparan hərbçilər addımlayıblar.

İlk dəfə bu paradda qardaş Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin parad heyəti də iştirak edib.

Doğma Azərbaycanımızın qorxmaz, igid övladları – Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin hərbi qulluqçuları, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları tribuna önündən keçərək Vətənə, xalqa, dövlətə, Ali Baş Komandana və Heydər Əliyev ideyalarına öz sədaqətlərini bir daha bildiriblər.

Silahlı Qüvvələrin 100 illiyinə həsr olunmuş paradı birləşmiş hərbi orkestr müşayiət edib.

Sonra hərbi paradda Azərbaycan Ordusunun güc və qüdrətinin təqdimatı, ən müasir hərbi və xüsusi texnikaların keçidi başlayıb.

Azərbaycan Ordusunun 100 illiyi münasibətilə təşkil olunan parada Hərbi Dəniz Qüvvələrinin gəmiləri dənizdən dəstək verib.

Bunun ardınca Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başlayıb.

Daha sonra Bakı səmasına döyüş təyyarələri və qırıcılar daxil olub, milli şahinlərimiz paytaxt səmasında nümunəvi uçuşları davam etdiriblər.

Məhz bu paradda hərbi aviasiya tarixində ilk dəfə Azərbaycan şahinləri “SU-25” hücum təyyarələri ilə yüksək pilotaj məharəti göstəriblər.

**xxxxx**

Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra qardaş Türkiyənin “Solo Türk” və “Türk Ulduzları” aviaqrupuna daxil olan 2 ədəd “F-16” və 8 ədəd “F-5” tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirib.

Beləliklə, bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir - Müstəqillik!

# DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNİN İLK BURAXILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLİB

***İyunun 23-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.***





Tədbirdə respublikanın Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov iştirak edib.

Əvvəlcə Ali Hərbi Məktəbin döyüş bayrağı sıra meydanına gətirilib. Sonra Milli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədov təntənəli mərasimdə çıxış edərək Ali Hərbi Məktəbin ilk buraxılışının qoşunların həyatında ən əlamətdar günlərdən biri olduğunu bildirib.

Qeyd olunub ki, ölkəmizdə aparılan hərbi quruculuq işləri Daxili Qoşunlardan və onun Ali Hərbi Məktəbindən də yan keçməyib. Bu ali təhsil ocağı qısa müddət ərzində bütün zəruri maddi-texniki və tədris bazası ilə təmin edilib, xidmətin müasir standartlara uyğun təşkili məqsədilə tam kompyuterləşdirilmiş auditoriyalar, təlim şəhərcikləri yaradılıb, kursantların intellektual səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən xüsusi fənn kabinələri və xarici dil mərkəzi təşkil olunub.

Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təbrik və xoş arzularını mərasim iştirakçılarına çatdırıb. Bildirilib ki, Daxili İşlər Nazirliyinin əsas struktur qurumlarından olan Daxili Qoşunlar yarandığı gündən şərəfli xidmət yolu keçib, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə fədakarlıqlar göstərib, ölkədə sabitliyin, ictimai təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayıb. Ulu Öndər Heydər Əliyevin vaxtilə dediyi “Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir” fikrini xatırladan nazir möhtərəm ölkə başçımızın ali diqqət və qayğısının nəticəsi olaraq hazırda qoşunların peşəkar hərbi quruma çevrildiyini nəzərə çatdırıb.

Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarm Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən cənab R.Usubov bu işdə digər ölkələrin də analoji təhsil müəssisələri ilə işgüzar əlaqələrin əhəmiyyətini qeyd edib.

Nazir Ramil Usubov hər zaman Daxili Qoşunların inkişafına qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə peşəkar zabit kadrların hazırlanması məqsədilə 2014-cü ildə Ali Hərbi Məktəbin yaradıldığını, məhz Ali Baş Komandanın xüsusi diqqəti sayəsində onun maddi-texniki bazasının ilbəil gücləndiyini, bütün infrastruktur obyektlərinin tikildiyini vurğulayıb. O, bu gün Ali Hərbi Məktəbin öz təyinatına uyğun olaraq, qoşunlar üçün yüksək ixtisaslı, peşəkar zabit heyətinin hazırlanması ilə bağlı çox böyük işlər gördüyünü, bu mühüm vəzifənin gələcəkdə də layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran Daxili İşlər Naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə bir daha təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil müəssisəsinin rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, olduqca vacib fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Nazir Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş dörd məzuna - Emil Abdullayev, İlkin Allahverdiyev, Xəyal Cəbrayılov və Cavid Məhərrəmzadəyə fərqlənmə diplomlarını və “leytenant” hərbi rütbələrinin paqonlarını təqdim edib.

Gənc zabit Emil Abdullayev “Yaş kötüyü”nə rəmzi xatirə lövhəsini vurub.

Daha sonra döyüş bayrağı üçüncü kursun kursantlarına təhvil verilib və onlar məktəbin marşını ifa ediblər.

Sonda şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçib.

**Daxili İşlər Nazirliyi**
**Mətbuat Xidməti**

2_Layout 1 29.06.2018 13:11 Page 1



# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ BİR QRUP HƏRBİ QULLUQÇUNUN MÜKAFATLANDIRILMASI MƏRASİMİ KEÇİRİLİB

***Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun müvafiq əmrinə əsasən, Daxili Qoşunların bir qrup hərbi qulluqçusu "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" və "Qüsursuz xidmətə görə" 1-ci, 2-ci, 3-cü dərəcəli medalları ilə mükafatlandırılıb.***

Bu münasibətlə iyun ayının 29-da Daxili Qoşunların Baş İdarəsində mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov mükafatları hərbi qulluqçulara təqdim edib.

Qeyd edək ki, müvafiq əmrə əsasən, ümumilikdə, 339 nəfər hərbi qulluqçu medallarla təltif edilib. Onlardan 23 nəfərə "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı", 39 nəfərə 1-ci dərəcəli, 86 nəfərə 2-ci dərəcəli, 191 nəfərə isə 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı təqdim olunub.

**Mətbuat xidməti**



# HƏRBİ HİSSƏLƏRİN NÖVBƏTİ İLDÖNÜMÜ TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD EDİLİB

***Bu münasibətlə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı şəxsi heyətə təbrik məktubu ünvanlayıb***

İyunun 27-də Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin yaradılmasının 15-ci, iyunun 30-da isə 17072 və 17074 saylı hərbi hissələrin yaradılmasının 26-cı ildönümü tamam olub. Bu münasibətlə hərbi hissələrdə təntənəli mərasim keçirilib.

Tədbir Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçularımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb, Dövlət Himni ifa olunub.

İlk olaraq çıxış edən hərbi hissə komandirləri şəxsi heyətin üzərinə düşən xidməti vəzifə borclarını, eləcə də qarşıya qoyulmuş bütün tapşırıqları tam və keyfiyyətlə yerinə yetirdiyini bildirərək, xidməti-döyüş fəaliyyətində və hərbi intizamın möhkəmləndirilməsində yüksək nailiyyətlər əldə etdiyini vurğulayıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi xüsusi diqqət və qayğının nəticəsində bu gün hərbi hissələrimizin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində effektiv tədbirlər həyata keçirilir, hərbi qulluqçuların peşəkarlığı günü-gündən artırılır.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun ildönümü münasibətilə şəxsi heyətə ünvanladığı təbrik məktubu oxunub.

Təbriklərdə vurğulanıb ki, hərbi hissələrimiz ötən müddət ərzində təqdirəlayiq xidmət təcrübəsi toplayıb, həyata keçirilmiş abadlıq-quruculuq işləri nəticəsində şəxsi heyətin xidmət və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə olunub.

Məktubda, həmçinin, şəxsi heyətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacağına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini davam etdirəcəyinə, ləyaqətli xidmət nümunəsi göstərəcəyinə əminlik ifadə olunub.

Daha sonra ildönümü münasibətilə xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması barədə hərbi hissə komandirlərinin əmrləri elan edilib və mükafatlar təqdim olunub.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# VETERANLARIMIZ 17071 SAYLI HƏRBİ HİSSƏNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞÜBLƏR

***İyunun 26-da Daxili Qoşunların 17071 saylı hərbi hissəsində Daxili Qoşunların veteranları ilə şəxsi heyətin görüşü keçirilib. Daxili Qoşunların Veteranlar Şurasının tədbirlər planına uyğun olaraq və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü münasibətilə keçirilən görüşdə Veteranlar Şurasının sədri Çingiz Daşdəmirov, Veteranlar Şurası sədrinin müavini Telman Aslanov, Veteranlar Şurasının üzvləri Murad Mürsəlov və Yalçın Abbasov iştirak ediblər.***





Həmin gün hərbi hissə komandanlığı və veteranlar arasında aparılan söhbət zamanı hərbi hissənin həyatı, dislokasiya yeri üzrə icra hakimiyyəti və hüquq-mühafizə orqanları ilə əlaqələrin qurulması, bölgədə yaşayan qoşunların veteranlarının diqqət mərkəzində saxlanması və hərbi hissədə keçirilən tədbirlərdə iştirakı, şəxsi heyətin vətənpərvərlik tərbiyəsi məsələləri barədə maraqlı fikir mübadiləsi olub.

Veteranlar hərbi hissədə şəxsi heyət üçün yaradılmış xidmət və məişət şəraiti ilə tanış edilib. Hərbi qulluqçularımızın müasir standartlara cavab verən hərbi şəhərcikdə xidmət aparması, hərbi hissədə səliqə-sahmanın qorunub saxlanması və salınan yaşıllıq zolaqları müsbət təəssürat doğurub. Burada görülmüş quruculuq işlərinin dövlətimizin şəxsi heyətə yüksək diqqət və qayğısının təzahürü olduğu xüsusi vurğulanıb.

26 iyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə hərbi hissədə keçirilən bayram mərasimində Milli Lider Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi anılıb. Dövlət Himni ifa olunub. Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının bayramla əlaqədar təbriki şəxsi heyətə çatdırılıb.

Hərbi hissə komandirinin vəzifəsini icra edən mayor Vüqar Novruzov Silahlı Qüvvələrimizin 100-cü ildönümü mövzusunda məruzə ilə çıxış edib. Daxili Qoşunların Veteranlar Şurasının sədri Ç.Daşdəmirova da mərasimdə söz verilib. O, əlamətdar gün münasibətilə şəxsi heyətə veteranlar adından ürək sözlərini bildirib. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

Veteranlar hərbi hissədə şəxsi heyətlə birgə televiziya ilə yayımlanan Silahlı Qüvvələrimizin hərbi paradına baxıblar.

Daha sonra veteranlar şəxsi heyət qarşısında "Milli Ordumuz qürur mənbəyimizdir" mövzusunda çıxış ediblər. Veteranlar Ç.Daşdəmirov, M.Mürsəlov və Y.Abbasovun çıxışlarında Azərbaycan Silahlı Qüvvələrinin 1918-1920-ci illərdə yaradılmasının tarixi hadisə olduğu, ölkəmizin öz müstəqilliyini bərpa etməsindən sonra ordumuzun yenidən yaradılmasının mühüm əhəmiyyəti vurğulanıb, ərazi bütövlüyümüz uğrunda döyüşlərdə Azərbaycanın hərbi qulluqçularının qəhrəmanlıq nümunələri göstərdiyi nəzərə çatdırılıb.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin Milli Ordumuzun formalaşması və inkişafında tarixi xidmətləri xalqımız tərəfindən heç vaxt unudulmur. Bu gün ölkəmizdə ordu quruculuğu prosesi Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Milli Ordumuz Cənubi Qafqazın ən güclü ordusu hesab olunur. Respublikamızın hərbi potensialı hər birimizdə haqlı qürur hissi doğurur. Müasir silah və texnika ilə təchiz olunmuş, yüksək döyüş ruhuna malik ordumuzun işğal altındakı torpaqlarımızı azad edəcəyi gün uzaqda deyil.

Veteranlar öz çıxışlarında şəxsi heyətə hərbi xidmətlə bağlı dəyərli tövsiyələrini də verərək, onlara qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində uğurlar arzulayıblar.

Hərbi hissədə olarkən veteranlar müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə hərbi kollektivin möhkəmləndirilməsi mövzusunda tərbiyəvi söhbət də aparıblar.

Sonda hərbi hissə komandanlığı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçularla xatirə şəkli çəkdirilib.

Veteranlar Şurasının üzvləri bölgəyə səfəri zamanı orada yaşayan veteranlarımızla da görüşərək, onların qayğıları ilə maraqlanıblar, habelə təşkilatlanmaları yönündə fəaliyyət məsələləri müzakirə edilib.

**Daxili Qoşunların Veteranlar Şurası**

# HƏRBİ QOSPİTALIN YENİ QƏBUL ŞÖBƏSİ İSTİFADƏYƏ VERİLİB

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi Qospitalı - 12576 saylı hərbi hissəsi böyük inkişaf yolu keçmiş və bu gün öz potensialı, zəngin təcrübəsi ilə fərqlənir. Hər zaman əsgər və zabitlərimizin sağlamlıqlarının etibarlı təminatçısı olan qospital respublikada müasir tibbi avadanlığa və zəngin təcrübəyə malik sağlamlıq mərkəzlərindən biridir desək, heç də yanılmarıq. Burada çalışan hər bir tibb işçisinin vəzifəsi müalicəyə ehtiyacı olan hərbçilərə tələb olunan səviyyədə tibbi yardım göstərməkdir. Bu gün Daxili Qoşunların şəxsi heyətinin sağlamlığının keşiyində durmuş Hərbi Qospitalın tibb işçiləri vəzifələrinin öhdəsindən məharətlə gələrək hərbi qulluqçularımızın qısa müddətdə və keyfiyyətlə müalicə olunmasını təmin edirlər. Şəxsi heyətin, veteranlarımızın, eləcə də hərbi qulluqçularımızın ailə üzvlərinin sağlamlığının təminatçısına çevrilmiş Hərbi Qospitalda xidmətin təşkili ildən-ilə daha da təkmilləşdirilir.





Daxili İşlər Nazirinin və Daxili Qoşunlar Komandanlığının hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuş tibb müəssisəsi xəstələrin effektiv müalicəsi üçün ən son texniki-tibbi avadanlıqlarla təchiz olunub. Həmçinin, burada davamlı olaraq abadlıq-quruculuq işləri, xidmət sahələrinin genişləndirilməsi davam etdirilməkdədir.

İyunun 20-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun iştirakı ilə Hərbi Qospitalın müasir standartlara cavab verən yeni istifadəyə verilmiş Qəbul şöbəsinin açılışı qeyd etdiklərimizin əyani sübutudur.



Şöbə rəisi tibb xidməti mayoru Ceyhun Abbasovun sözlərinə görə, modernləşdirilmiş şöbənin ərazisi genişləndirilib, xəstələrin rahat qəbulu üçün hərtərəfli şərait yaradılıb. Bundan sonra xəstələrin müayinəsi Hərbi Qospitalın mütəxəssisləri tərəfindən məhz Qəbul şöbəsində həyata keçiriləcək. Şöbədə oftalmoloqun, lor həkiminin və xüsusi ağır xəstələrin müayinəsi üçün, ekspress laboratoriyanın işi üçün tam təchizatlı otaqlar yaradılıb. Modernləşdirilmiş sarğı otağı da yeni avadanlıqlarla təchiz edilib. Eyni zamanda, burada bütün ambulator əməliyyatların aparılması da planlaşdırılıb.



Burada xəstələrin rahatlığı və abadlıq işlərinin səmərəli təşkili də nəzərdən qaçmayıb. Belə ki, şöbənin arxa ərazisində gül bağçası salınıb.

Hərbi qulluqçularımızın sağlamlığının keşiyində hər zaman ayıq-sayıq dayanan hərbi həkimlərimizi, o cümlədən Qəbul şöbəsinin tibb personalını açılış münasibətilə ürəkdən təbrik edir, onlara şərəfli xidmətlərində uğurlar diləyirik.

**leytenant N.Ağayeva**

# ŞƏXSİ HEYƏTİN SƏHHƏTİNİN QORUNUB SAXLANILMASI İSTİQAMƏTİNDƏ BÜTÜN ZƏRURİ TƏDBİRLƏR GÖRÜLMƏKDƏDİR

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, səxsi heyətin sağlamlıq durumunun qorunub saxlanılmasında hissənin tibb personalının fəaliyyəti danılmazdır. Elə bu səbəbdən də yerlərdə tibb xidmətlərinin fəaliyyəti Daxili Qoşunlar Komandanlığının və hərbi hissə rəhbərliyinin ciddi nəzarətdə saxladığı sahələrdən biridir.





25033 saylı hərbi hissənin tibb personalı vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə həyata keçirir.

Tibb xidmətinin rəisi tibb xidməti mayoru Elşən Cumiyev şəxsi heyətin sağlamlığının qorunması barədə məlumat verərkən bildirdi ki, xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plan əsasında təşkil edir. Onun sözlərinə görə, gündəlik olaraq işə başlamazdan öncə xidməti müşavirə keçirilir ki, bu zaman xidmətin hərbi qulluqçuları arasında görüləcək işlərin bölgüsü aparılır. Hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Belə ki, işçi, həkim-terapevt Səbinə Salahova stasionar müalicəyə qəbul olunmuş xəstələri nəzarətə götürür, xəstələrə venadaxili inyeksiyaları yerinə yetirir, eyni zamanda ambulator xəstələrin müayinə və müalicəsini təmin edən tibbi heyətin işinə rəhbərlik edir. Xəsarət alanlara və təxirəsalınmaz xəstələrə həkim nəzarəti altında yardım göstərmək, əczəxanadan alınan dərmanları düzgün saxlamaq, habelə istifadəsini təşkil etmək, tibbi avadanlığın düzgün istifadəsinə və saz vəziyyətdə saxlanılmasına, sterilizasiyasına diqqət yetirmək tibb xidmətində feldşer gizir İqbal Şirvanovun funksional vəzifələridir. Tibb xidmətində sanitar-təlimatçı, dezinfektor çavuş Hakim Muradlı və xüsusi təyinatlı dəstədə sanitar-təlimatçı gizir Aydın Rzayev isə həftə ərzində əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında mütəmadi olaraq dezinfeksiya işləri aparır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına nəzarət edirlər. Digər bir işçi, aptek rəisi-feldşer Aydın Həsənovun vəzifəsi tibb məntəqəsi və hərbi hissənin bölmələrinin tibbi ləvazimat, dərman preparatları ilə fasiləsiz təminatı, resept və tələbnamələr üzrə dərmanları düzgün hazırlamaqdır.

Tibb xidmətinin rəisi bir qədər də yay mövsümü ilə əlaqədar görülən işlərdən danışdı. O, qeyd etdi ki, günvurma, istivurma hallarının, eləcə də sürünənlər, həşərat dişləmələri zamanı şəxsi heyətə ilkin tibbi yardımın vaxtında və düzgün yerinə yetirilməsindən ötrü hərbi qulluqçular təlimatlandırılır. Çöl, səhra məşğələlərinin kölgədə, daha sərin yerdə keçirilməsi tövsiyə olunur. Bundan əlavə, şəxsi heyətin qaynadılmış suya olan tələbatı da daima diqqət mərkəzində saxlanılır.

Bütün bunlarla yanaşı, tibb xidməti obleqat qrupuna aid olan hərbi qulluqçuları hər ay tibbi müayinəyə cəlb edir. Həmçinin, gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyətinin tibbi müayinəsini də aparır.

Bir sözlə, şəxsi heyətin səhhətinin qorunub saxlanılması istiqamətində tibb xidməti tərəfindən bütün zəruri tədbirlər görülməkdədir.

**kapitan T.Əlizadə**

3_Layout 1 29.06.2018 12:43 Page 1



# HƏRBİ QULLUQÇULARLA METODİKİ-TƏLİM TOPLANIŞLARI KEÇİRİLİB



"2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na əsasən, iyun ayının 12-də Ali Hərbi Məktəbin və hərbi hissələrin qərargah rəislərinin şəxsi heyətin uçotu üzrə baş köməkçiləri (köməkçiləri və inzibati bölmə rəisləri) ilə metodiki-təlim toplanışı keçirilib.

Toplanışda hərbi qulluqçularla tərtib olunmuş cədvələ əsasən məşğələlər keçirilib. Təlim toplanışının sonunda hərbi qulluqçulardan məqbullar qəbul edilib.

* * * *

Daha bir metodiki-təlim toplanışı iyun ayının 21-də Ali Hərbi Məktəbin, hərbi hissələrin silah xidməti rəisləri və zabitləri ilə keçirilib. Toplanışda hərbi qulluqçuların tam tərkibdə iştirakı təmin olunub.

Plana əsasən, cari ilin ötən müddəti ərzində Ali Hərbi Məktəbin və hərbi hissələrin maddi-texniki təminat xidmətlərində silah xidmətlərinin iş fəaliyyətinin yekunları, hərbi hissələrdə silah-sursata, optik nişangahlara, artilleriya qurğularına, mərmilərinə, xüsusi və müdafiə vasitələrinə keçirilmiş illik texniki baxışın nəticələri təhlil olunub. Bununla yanaşı, toplanış iştirakçıları ilə qoşunların istifadəsində olan silah və gecəgörmə cihazlarının taktiki-texniki xüsusiyyətləri, onlardan istifadə qaydalarının öyrədilməsi və qorunub saxlanılması, hərbi hissənin bölmələrinin silah və döyüş sursatları ilə təminatı, silahların təhkim olunması qaydaları, döyüş təlimi və xidmətin aparılması zamanı döyüş sursatlarının sərf olunmasının uçotu, hərbi hissələrin döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş sursatlarının eşalonlaşdırılması qaydaları, habelə silah-sursatla davranma zamanı təhlükəsizlik qaydalarına riayət olunması barədə əsas tələblər, hərbi hissələrdə xüsusi vasitələrin tətbiqi bölmələrinin şəxsi heyətinin xüsusi silah və qurğularla təchizat məsələsində, verilib-alınmasında, qorunub saxlanmasında və uçotun aparılmasında silah xidməti rəislərinin rolu adlı mövzularda məşğələlər keçirilib. Təlim toplanışının sonunda hərbi qulluqçulardan məqbullar qəbul edilib.

**kapitan T.Əlizadə**

# BAYRAM GÜNLƏRİNDƏ ŞƏXSİ HEYƏTİN ASUDƏ VAXTI SƏMƏRƏLİ TƏŞKİL EDİLİB

İslam dininin saflığını, humanist və insanpərvər mahiyyətini nümayiş etdirən Ramazan dünya müsəlmanları, o cümlədən azərbaycanlılar üçün müqəddəs ay hesab edilir.



Xeyirxahlıq, mərhəmət, insanpərvərlik kimi ali insani keyfiyyətlərə sahib Ramazan ayında əsas şərt kimi oruc tutmaq, ruhi və cismani təmizlənmə vacib sayılır.

İslam dinini Azərbaycan xalqının ən yüksək mənəvi dəyərlərindən hesab edən Milli Liderimiz Heydər Əliyev Ramazan ayına daima böyük ehtiramla yanaşıb, onun fəlsəfi mahiyyətini yüksək dəyərləndirib.

Müsəlmanlar bu günü böyük sevinc və fərəh hissi ilə bayram edir, bir-birlərinə ehtiram və məhəbbət bildirərək sıx həmrəylik nümayiş etdirir, həyatdan köçmüş yaxınlarını yad edirlər.

Bu günlərdə bütün müsəlman aləmində və ölkəmizdə yüksək təmtəraqla qeyd edilən Ramazan bayramının Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş 15 iyun - Milli Qurtuluş Gününə təsadüf etməsi bayram ovqatını daha da rövnəqləndirib. Hər iki bayram bütün müəssisə və təşkilatlarda, o cümlədən dövlət qurumlarında yüksək səviyyədə keçirildi.

Ramazan bayramı hər il olduğu kimi, bu il də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında yüksək əhval-ruhiyyə ilə qeyd olunub. Bu məqsədlə hərbi hissələrdə iyunun 15-dən 19-na kimi tərtib olunmuş müvafiq plana uyğun olaraq, şəxsi heyətlə bayram tədbirləri həyata keçirilib.

Ramazan bayramı və Milli Qurtuluş Günü münasibətilə tərtib olunmuş tədbirlər planına uyğun olaraq, hərbi qulluqçuların istirahəti təmin olunub, şəxsi heyətin asudə vaxtı səmərəli təşkil edilib.

Eyni zamanda, şəxsi heyətlə təntənəli bayram mitinqi keçirilib, söhbətlər aparılıb, mövzu axşamları, viktorinalar, idman yarışları və s. təşkil edilib, bayram naharının verilməsi təmin olunub. İstirahət günlərində hərbi qulluqçuların hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsi məqsədilə Azərbaycan tarixinin şanlı səhifələrini əks etdirən filmlər nümayiş etdirilib.

**leytenant N.Ağayeva**

# HƏRBİ QULLUQÇULARIMIZ MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN MƏZARINI ZİYARƏT EDİBLƏR





Azərbaycan tarixində zaman-zaman öz igidliyi, şücaətilə əbədi qəhrəmana çevrilən, doğma torpağını yağı düşməndən qoruyaraq, insanların yaddaşında dərin iz buraxan yüzlərlə Vətən oğulları yetişib, bu gün də yetişməkdədir. Belə bir deyim var, xalq öz qəhrəmanlarını unutmur, onları nağıllarda, dastanlarda yaşadır. El içində adı iftixarla çəkilən, düşmənə göz dağı qoyan, gənclərimizə örnək kimi təqdim olunan qorxubilməz Vətən oğullarından biri də müddətli həqiqi hərbi xidmətini Daxili Qoşunlarda keçmiş Milli Qəhrəman Mübariz İbrahimovdur. O, sözün əsl mənasında, ölməz bir qəhrəmandır. İllər keçəcək, qərinələr ötəcək, amma M.İbrahimov heç zaman unudulmayacaq. O, öz ölümü ilə ölümsüzlüyü qazandı. Onun Vətən torpağının azadlığı yolunda göstərdiyi şücaəti tərənnüm etməkdə kəlmələr belə acizdir.

M.İbrahimov 2010-cu il iyunun 18-də təmas xəttində erməni hərbçilərilə təkbaşına vuruşaraq, uğrunda canını əsirgəmədiyi doğma torpağına qovuşdu, şəhidlik zirvəsinə yüksəldi. Altı saatdan çox erməni qəsbkarları ilə təkbaşına döyüşən, düşmənin çox sayda hərbi qulluqçusunu məhv edən, düşmənə həqiqi mənada qan udduran igidimizin cəsədi 141 gündən sonra ölkəmizə təhvil verilib, noyabrın 7-də böyük ehtiramla II Fəxri Xiyabanda dəfn olunub. Ölümündən səkkiz il keçməsinə baxmayaraq, hər il olduğu kimi, bu il də Daxili Qoşunların hərbi qulluqçuları şəhidimizin əziz xatirəsini anır, məzarını ziyarət edirlər. Belə ki, iyunun 18-də Daxili Qoşunların bir qrup hərbi qulluqçusu II Fəxri Xiyabana gedərək onun məzarı önünə tər çiçəklər düzüblər. Onun cəsurluğu, iradəsi haqqında xidmətə yeni qəbul olunan əsgərlərə məlumat verilib. Vaxtilə Daxili Qoşunların müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuş qəhrəmanımızın keçdiyi şərəfli döyüş yolunun bugünkü gənclərə nümunə olduğu vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində günü-gündən qüvvətlənən Azərbaycan Ordusunun Mübariz kimi oğulları hələ də var, olub, olacaq. Əminik ki, bu cür qəhrəman Vətən fədailərinin qanı ilə yuyulan müqəddəs torpaqlarımız mütləq düşmən tapdağından azad olunacaq. Bax, həmin gün bütün şəhidlərimizin, o cümlədən torpağını canından çox sevmiş Mübarizin ruhu sakitlik tapacaq...

**leytenant N.Ağayeva**

# HƏRBİ ŞƏHƏRCİYİN MÜDAFİƏ VƏ MÜHAFİZƏSİ UĞURLA HƏYATA KEÇİRİLİR



Cari ilin I yarımilində döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, habelə həvalə olunmuş tapşırıqları uğurla həyata keçirən hissələrdən biri də 25033 saylı hərbi hissədir.

Döyüş hazırlığının qorunub saxlanılmasında hərbi şəhərciyin müdafiə və mühafizəsini təşkil edən qarovulun üzərinə də böyük məsuliyyət düşür.



Bu baxımdan komendant bölüyünün qarovul xidmətinə cəlb olunan hərbi qulluqçularında bir sıra vacib amillərə xüsusi diqqət yetirilir. Əsgərlərin sağlamlığını, eyni zamanda mənəvi-psixoloji durumunu əsas şərt hesab edən bölük komandiri baş leytenant Rəşad Cavadov digər lazımi xüsusiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı qazanıldığını bildirdi. Onun sözlərinə görə, təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən əsgər posta olarkən daha ayıq-sayıq, daha çevik olur ki, nəticə etibarilə tapşırılmış obyektin mühafizəsini qüsursuz olaraq yerinə yetirir.

Baş leytenant R.Cavadov postların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunmasını daima diqqət mərkəzində saxlayır. Xidmətin təşkilində bölüyün şəxsi heyəti fəallıq nümayiş etdirir. Vəzifələrin icrasında nailiyyət əldə etmiş hərbi qulluqçulardan qarovul rəisi baş çavuş Şəmkir Qasımlının, qarovul rəisinin köməkçiləri çavuş Heydər Heydərovun, çavuş Səməd Əsədovun, əsgərlərdən Nurlan Daşdanovun, Rüstəm Abdullayevin, Sadiq İbrahimovun və Rahim Abdullayevin adlarını qeyd etmək olar.

**kapitan T.Əlizadə**

## ŞƏHİDLƏRİMİZ

# EL GÖZÜNDƏ QEYRƏTLİ OĞUL KİMİ UCALDI...

Vətən torpağının toxunulmazlığı, doğma xalqının təhlükəsizliyi, hərbi andın müqəddəsliyi hərbi qulluqçunun mənəvi əqidəsini formalaşdıran, onun döyüş ruhunu gücləndirən və iradəsini möhkəmləndirən çox dəyərli məfhumlardır. Fəxrlə vurğulamaq olar ki, Azərbaycanın müstəqillik dövrünün hərb salnaməsi vətənpərvər hərbi qulluqçularımızın çoxsaylı fədakarlıq nümunələrini özündə yaşadır. Xüsusən də respublikamızın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə xalqımızın fədai oğulları ləyaqətlə iştirak edərək, hər biri düşmən qarşısında bir canlı siperə çevrildi. Belə oğullardan biri də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçusu olmuş çavuş (bəzi sənədlərdə hərbi rütbəsi sıravi (əsgər) qeyd olunub – Y.A.) Qəhrəmanov Azər Muxtar oğlu idi. A.Qəhrəmanov 14 iyun 1973-cü ildə Biləsuvar rayonunun Ağalıkənd yaşayış məntəqəsində dünyaya göz açıb. Muxtar Qəhrəmanov və Qətifə Fətullayevanın qurduğu ailədə iki oğul və iki qız övladı anadan olub. Azər ailənin böyük övladı idi. Qəhrəmanovlar ailəsi bir müddət rayonda yaşadıqdan sonra paytaxt Bakıya köçüb. Hazırda ailə Bakının Bakıxanov qəsəbəsində yaşayır. Azər Bakıxanov qəsəbəsindəki 96 saylı orta məktəbdə 8 il oxuyub. 1991-ci ildə isə Bakıdakı 56 saylı texniki-peşə məktəbini radioelektron aparatları və cihazları quraşdırıcısı ixtisası üzrə bitirib. Sonra "Universal" adlanan müəssisədə 2-ci dərəcəli montajçı işləyib. Atasının dediyinə görə, Azər yeniyetməlik yaşından karate idman növü ilə məşğul olub, idmançı məharəti ilə seçilib, öz fiziki hazırlığına həmişə ciddi fikir verib. M.Qəhrəmanov onu da bildirdi ki, Azər ailəcanlı, valideynlərinə ehtiram göstərən, ağır təbiətli, ədəb-ərkanlı gənc olub. Uzun illər neft sahəsində fədakar əməyi ilə çalışmış Muxtar kişi oğlu Azəri və digər övladlarını da zəhmətkeş, cəmiyyət üçün yararlı olmaq, öz xalqının adını uca tutmaq ruhunda tərbiyə etdiyini vurğuladı.



Babası Həsən Qəhrəmanovun II Dünya Müharibəsində iştirak etməsi və yaralanması faktı da Azərin vətənpərvər ruhda yetişməsinə ciddi təsir göstərib.

A.Qəhrəmanov 18 dekabr 1991-ci ildə Sabunçu Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu Rayon İdarəsi) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Həmin vaxt Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yeni formalaşmağa başlamışdı. SSRİ DİN-in Daxili Qoşunlarının Bakı, Sumqayıt və Gəncədə yerləşən hərbi hissələri respublikamızın tabeliyinə keçmişdi. Azər 7535 saylı hərbi hissənin (1993-cü ilin yanvar ayınadək Daxili Qoşunların tərkibində fəaliyyət göstərib, həmin vaxtdan Penitensiar Xidmətin tabeliyinə verilib, hazırda mövcud deyil) sıralarında hərbi xidmətə başlayıb. O, Daxili Qoşunların ilk əsgərlərindən biri idi. 7535 saylı hərbi hissədə hərbi andı qəbul edib. Rabitə sahəsi üzrə ixtisasa yiyələndiyi nəzərə alınaraq hərbi hissənin rabitə taqımında atıcı vəzifəsinə təyin olunub. Sonra bu taqımda mexanik vəzifəsini yerinə yetirib. Onun nümunəvi xidməti hərbi hissə komandanlığının diqqətindən kənar qalmayıb. Belə ki, A.Qəhrəmanov rabitə taqımı komandirinin müavini vəzifəsinə və çavuş hərbi rütbəsinə yüksəlib. Azər bacarıqlı hərbi rabitəçi və öz vəzifələrini dəqiq icra edən taqım komandirinin müavini kimi qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində əzmkarlıq göstərib.

1992-ci il ərzində 7535 saylı hərbi hissədən döyüş bölgəsinə dəfələrlə hərbi dəstələr göndərilib. Ön cəbhədə yerləşmiş hərbi hissənin şəxsi heyəti ilə müntəzəm rabitə əlaqəsinin saxlanmasının təmin olunmasında Azərin də gərgin əməyi vardı.

1993-cü ilin yanvar ayının əvvəllərində 7535 saylı hərbi hissənin şəxsi heyətinin böyük bir hissəsi həyəcan siqnalı ilə qaldırılaraq ön cəbhəyə - Ağdam rayonu ərazisinə göndərilib. Onların sırasında Azər də vardı. O, burada yerləşmiş 3650 saylı hərbi hissənin (hazırda 67987 saylı hərbi hissə) tərkibində hərbi xidmətini davam etdirib. 7535 saylı hərbi hissədən göndərilmiş şəxsi heyətdən ibarət tabor formalaşdırılaraq döyüş tapşırıqlarının icrasına cəlb olunub. Maraqlıdır ki, Azərin hərbi biletində 3650 saylı hərbi hissədə xidmətkeçməyə aid qeydlərdə onun hərbi rütbəsi çavuş deyil, sıravi (əsgər) göstərilib. Hərbi xidmətkeçmə yerinin dəyişilməsi nəticəsində ştat vəzifəsinin dəyişikliyə uğraması başadüşülən olsa da, hərbi rütbənin nə üçün saxlanmadığı və ya qeydlərdə öz əksini tapmadığı




(yazı çapa hazırlanarkən bunu aydınlaşdırmaq mümkün olmadı – Y.A.) məlum deyil. Ehtimalımca, bu, 7535 saylı hərbi hissənin qoşunların tabeliyindən çıxması, habelə müharibə dövründə sənədlərin işlənməsindəki boşluqlarla bağlı ola bilər. Ona görə də mən bu yazıda şəhid hərbi qulluqçumuzun hər iki rütbəni daşıdığını qeyd etməyə məcburam.

Azərin tərkibində döyüş yolu keçdiyi 3650 saylı hərbi hissənin taboru Ağdam-Əsgəran istiqamətindəki düşmənlə təmas xəttində torpaqlarımızın müdafiəsində dayanıb. Bu ərazidə atəş zərbəsi altında qalması baxımından çox təhlükəli postlar Fərrux yüksəkliyinin ətəklərində, xüsusən də Xramord kəndində (hazırda Pirlər kəndi, işğal altındadır - Y.A.) yerləşirdi. Düşmən Fərrux yüksəkliyindəki mövqelərindən o dövrdə ordumuzun azad etdiyi Xramordu (yüksəkliyin yamacında yerləşir – Y.A.), eləcə də bu istiqamətdə Ağdamətrafı kəndləri, o cümlədən Ağdam şəhərini intensiv artilleriya atəşinə tuturdu. Bu ərazidə keçdiyi qısa döyüş yolu zamanı Azər komandirlərin qarşıya qoyduğu döyüş tapşırıqlarını mətinliklə yerinə yetirib. Döyüşçü yoldaşları onu cəsarətli və qətiyyətli hərbi qulluqçu kimi xatırlayırlar. Bəzi döyüşçü yoldaşlarının mənə verdikləri məlumata görə, o, 1993-cü ilin yanvar ayında (ayın tarixi dəqiq deyilməmişdi – Y.A.) Ağdamın Çuxurməhlə kəndi ərazisində düşmən minaatanından atılan mərminin partlaması nəticəsində ağır yaralanaraq həlak olub. Azər barədə "Oğullar verir ki can, yaşasın Azərbaycan" kitabında verilən (1999-cu ildə Hərbi Nəşriyyatda işıq üzü görüb – Y.A.), müəllifi olduğum məqalədə də belə yazılıb. Ancaq apardığım yeni araşdırmanın nəticəsi olaraq, ailəsindən təqdim edilən və üzə çıxarılan arxiv sənədlərinə görə, Azər 1993-cü il yanvar ayının 19-da Ağdam döyüş bölgəsində, Xramord (Pirlər) kəndi ərazisində ağır yaralanaraq həlak olub. Bu barədə 23.01.1993-cü il tarixli, IV-JQ 381987 nömrəli ölüm haqqında şəhadətnamə tərtib olunub. Ölüm haqqında şəhadətnamədə yazılan tibbi diaqnoz belədir: "Plevral boşluğun odlu silah yarası. Açıq pnevmotoroks. Hemorragik şok".

İstənilən halda, qəlpə, yoxsa güllə yarasından həlak olmasından asılı olmayaraq, Azər döyüş mövqeyində Vətən torpağının müdafiəsi zamanı düşmənin açdığı atəşə məruz qalaraq şəhidlik zirvəsinə ucalıb. Qeyd olunan Pirlər və Çuxurməhlə kəndləri isə bir-birinin yaxınlığında yerləşirlər və həmin vaxt ön cəbhə xəttinin bir cinahı da buradan keçirdi.

A.Qəhrəmanov Bakıxanov qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunub. "Azərbaycan Respublikasının Xatirə kitabı"nda onun haqqında məlumat dərc edilib. "Murovdağ" qəzetinin 26 fevral 1993-cü il tarixli sayında şəhid barədə məqalə işıq üzü görüb.

Qəhrəmanovlar ailəsinə dövlətimiz tərəfindən müvafiq müavinət təyin olunub, mənzil verilib.

Azər el gözündə qeyrətli oğul kimi ucalıb. Onun xatirəsi daim qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 29.06.2018 12:12 Page 1



## DÖVLƏT BAYRAĞIMIZIN ASILMASI İLƏ BAĞLI QAYDALARDA DƏYİŞİKLİK EDİLİB

***Nazirlər Kabineti "Azərbaycan Respublikası Dövlət Bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 29 oktyabr 2013-cü il tarixli qərarına dəyişiklik edib.***

Nazirlər Kabinetinin 2005-ci il 25 mart tarixli, 55 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları"na əsasən Dövlət Bayrağı ya bayraq direyinin, ya da xüsusi tutqaclara bərkidilən dəstək üzərində qaldırılır və bu zaman bayrağın mavi zolağı direyin uc tərəfi istiqamətində olmalıdır.

Bayraq direksiz də asıla bilər. Bu halda bayraq şaquli müstəviyə sıx bərkidilərək divara çəkilib uzadılmalı, binanın və ya tikilinin tavanına həmin hissədə yerləşən üfüqi vəziyyətdə mühəndis qurğusuna bərkidilməlidir. Bu halda ayla ulduz sağ tərəfə baxmalıdır.

"Azərbaycan Respublikası Dövlət Bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 29 oktyabr 2013-cü il tarixli qərarına əsasən isə Azərbaycan Respublikasının Dövlət Bayrağı binanın divarına direksiz şaquli çəkildikdə və ya şaquli vəziyyətdə xüsusi tutqaclara bərkidildikdə, Dövlət Bayrağının mavi zolağı qarşıdan baxılarkən sol tərəfə yerləşməli idi. Ancaq bu halda bayrağı yenidən üfüqi vəziyyətə qaytaran zaman bayraqdakı zolaqların və ayla ulduzun yerləşməsi qaydalara uyğun gəlmir. Bu qaydada asılmış bayraq saat əqrəbinin hərəkətinin




əksi istiqamətində (sağdan sola) üfüqi vəziyyətə qaytarılsa, mavi zolaq deyil, yaşıl zolaq yuxarıda olurdu. Yaxud uyğun şaquli vəziyyətdə asılmış bayrağı saat əqrəbinin hərəkəti istiqamətində (soldan sağa) üfüqi vəziyyətə qaytaran zaman bayraqdakı zolaqların yerləşməsi qaydası pozulmurdu. Yəni mavi zolaq yuxarıda, qırmızı zolaq ortada, yaşıl zolaq aşağıda olurdu. Lakin bu zaman ayla ulduz sağ tərəfdə deyil, sol tərəfə baxırdı. Yəni hər iki hal Dövlət Bayrağının üfüqi vəziyyətdə yerləşməsi qaydasına uyğun gəlmirdi.

Nazirlər Kabinetinin son qərarı ilə əvvəlki qayda aradan qaldırılıb. Belə ki, Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 21 iyun 2018-ci il tarixli qərarına əsasən, Azərbaycan Respublikasının Dövlət Bayrağı binanın divarına direksiz şaquli çəkildikdə və ya şaquli vəziyyətdə xüsusi tutqaclara bərkidildikdə, Dövlət Bayrağının mavi deyil, yaşıl zolağı qarşıdan baxılarkən sol tərəfə yerləşməlidir.

### idman

## ZABİTİMİZ AVROPA ÇEMPİONATINDAN BÜRÜNC MEDALLA QAYIDIB

İyunun 12-dən 19-na kimi Böyük Britaniya Krallığında usta cüdoçular arasında keçirilən Avropa çempionatında Daxili Qoşunların İdman Komandasının baş məşqçi-müəllimi mayor Emil Hüseynov ölkəmizi layiqincə təmsil edib. Qələbə iddiası ilə döyüşə başlayan təmsilçimiz 50 ölkənin nümayəndələrinin qatıldığı yarışın yarımfinal mərhələsinə 6 rəqiblə görüşüb. Bu mərhələdə yalnız fransalı idmançıya məğlub olaraq üçüncülük uğrunda mübarizəni davam etdirib. Hərbi qulluqçumuz çətin sınaqda polşalı rəqibini üstələyərək bürünc medala layiq görülüb. E.Hüseynov güclü rəqiblə gərgin keçən döyüşün son saniyələrində həlledici fəndlə onun üzərində təmiz qələbə qazanıb.

Daxili Qoşunların idman şərəfini müxtəlif yarışlarda uğurla qoruyan mayor E.Hüseynov 8 yaşından idmanın sambo, cüdo növləri ilə məşğul olub. İdmana olan sevgisi zaman keçdikcə onu peşəkar idmançıya çevirib. Sumqayıt şəhərində uşaqlıq və gənclik illərini yaşayan Emil 1994-1998-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. Müddətli həqiqi hərbi xidmətini də Daxili Qoşunların İdman Komandasında keçib. Müddətdən artıq həqiqi hərbi xidmətə 1999-cu ildən 16075 saylı hərbi hissədən başlayıb. Bu hərbi hissədə müxtəlif vəzifələrdə çalışan hərbçimizə 2002-ci ildə "leytenant" ilkin zabit hərbi rütbəsi verilib. 1996-cı ildə gənclər arasında keçirilən Avropa çempionatında 3-cü yerə layiq görülərək, cüdo üzrə



idman ustası adını qazanıb.

Ümumilikdə, Daxili İşlər Nazirliyində keçirilən yarışların hər zaman fəal iştirakçısı olan mayor E.Hüseynov dəfələrlə respublika çempionu adına layiq görülüb.

İdmançı hərbi qulluqçumuzu növbəti qələbəsi münasibətilə təbrik edir, ona cansağlığı və daima Daxili Qoşunları öz uğurları ilə sevindirməsini arzu edirik.

**leytenant N.Ağayeva**



**Redaksiyadan: İyunun 30-da Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin yaranma günüdür. Qəzetimizin bu sayı üçün ştatdankənar müxbir postlarımızın hazırladıqları materialları seçərkən 17074 saylı hərbi hissədən göndərilən məqaləni bu baxımdan nəzərə aldıq.**

### NÜMUNƏVİ XİDMƏT

## KOMANDİRİN ŞƏXSİ NÜMUNƏSİ VACİB AMİLDİR

Daxili Qoşunların 17074 saylı hərbi hissəsində xidmət edən kapitan Novruz Tahirov hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, 1 aprel 1982-ci ildə Ermənistan Respublikası Sisyan rayonunun Urud kəndində dünyaya göz açıb. Sumqayıtdakı 34 saylı tam orta məktəbdə təhsil alıb. 2000-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müddətli həqiqi hərbi xidmətini Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibində keçib. 2007-ci ilin iyun ayından DİN-in Daxili Qoşunlarının 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada xüsusi təyinatlı dəstədə xidmət keçib. 2008-2010-cu illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində hərbi təhsil alıb. Sonra hərbi xidmətini 17074 saylı hərbi hissədə davam etdirərək, təminat və komendant bölüklərində taqım komandiri, xüsusi təyinatlı dəstədə həmlə qrupunun komandiri vəzifələrinə təyin olunub.

O, qardaş Türkiyə Cümhuriyyətində İzmir Jandarma Komando Kursunu bitirib. Beləliklə, öz peşəkarlıq səviyyəsi və təcrübəsini artırıb. 2012-ci ilin iyul ayında xüsusi vasitələrin tətbiqi bölməsi komandirinin müavini, 2016-cı ilin fevral ayında isə xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri vəzifəsinə irəli çəkilib. Hazırda xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsinin komandiridir.

Kapitan N.Tahirov komandiri olduğu bölmənin xüsusiyyətlərinə dərindən bələddir. Tabeliyindəki şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və nizam-intizamının möhkəmləndirilməsində əzmkarlıq göstərir. Vətənpərvər əqidəli zabit tabeliyindəki şəxsi heyətin qarşıya qoyula biləcək istənilən tapşırığı yerinə yetirməyə hazır olduğunu vurğulayır. Bölmədə onun rəhbərliyi altında praktiki təlimlərə, silah və xüsusi vasitələrin, texnikanın düzgün tətbiqi üsullarının mükəmməl öyrənilməsinə ciddi fikir verilir. Kapitan N.Tahirov "komandir şəxsi heyətə şəxsi nümunə göstərməlidir" prinsipini fəaliyyətində rəhbər tutur. O, şəxsi heyətin ehtiyaclarına diqqət və qayğı ilə yanaşır.

"Daxili Qoşunların zabiti olmaq şərəfli və məsuliyyətlidir. Bizə mühüm vəzifələr həvalə olunub və hər bir zabit çalışmalıdır ki, öz bilik və təcrübəsindən maksimum istifadə edərək, rəhbərlik etdiyi şəxsi heyəti bacarıqla yetişdirsin" – deyən kapitan N.Tahirov uğurlu nəticələrdən arxayınlaşmır. Hərbi hissənin qabaqcıl zabitlərindən biri kimi ona şərəfli xidmətində uğurlar arzulayırıq.

**17074 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

(əvvəli ötən sayımızda)

### metodiki vəsait

## HƏZM SİSTEMİ XƏSTƏLİKLƏRİNİN PROFİLAKTİKASI

"Fast-fud" adlanan qida qəbulu müəssisələri həkimlər tərəfindən xüsusi narazılıqla qəbul edilir. Məhz burada qəbul edilən qamburgerlər, dönərlər, bulkalar, qızardılmış pirojkilər və s. bu kimi qidalar insan orqanizminə (xüsusilə də mədə-bağırsaq sisteminə) daha çox zərər vururlar. Belə qidaları uzun müddət ərzində qəbul edənlər tez bir zamanda qidanın həzm edilməsində problemlərin yaranmasından, qıcqırma, ağrıların, qabırğaaltı sahədə ağırlıq hissiyyatının olmasından, gəyirmə, qəbizlik və digər əlamətlərin meydana çıxmasından və çəkinin artmasından əziyyət çəkməyə başlayırlar.

**3. Zərərli adətlərdən imtina edilməsi**

Spirtli içkilər (xüsusən də keyfiyyətsiz əldəqayırma içkilər) mədənin selikli qişasına kəskin şəkildə mənfi təsir göstərirlər. Onların təsiri nəticəsində mədədə kəskin iltihabi proses baş verir.

Siqaret çəkilməsi ilə mübarizə aparmaq da mədə xəstəliklərinin profilaktikasında vacib elementlərdən biri hesab olunur. Siqaret çəkilməsi nəticəsində mədənin selikli qişası əvvəlcə xeyli dərəcədə qalınlaşır, sonra isə atrofiya (məhv olmaq) olur.

**4. Gigiyena qaydalarına əməl edilməsi**

Qida qəbulundan bilavasitə əvvəl mütləq əlləri yumaq lazımdır. Əgər bu mümkün olmazsa, əlləri gigiyenik nəm salfetlərlə silmək olar. Bu sadə qaydaya əməl etməklə siz orqanizminizə bir çox qorxulu mikrobların (xüsusən Helikobakter pilori mikrobu) daxil olmasının qarşısını alırsınız.

Mənzilin və evdəki məişət əşyalarının müvafiq şəkildə təmiz saxlanması da bir çox xəstəliklər kimi, mədə-bağırsaq xəstəliklərinin profilaktikası üçün çox vacib hesab olunur. Qida hazırlayarkən istənilən məhsul yaxşı-yaxşı yuyulmalı və emal edilməlidir (təmizlənməlidir). Bu, ilk növbədə, termiki təsirə məruz qalmayan (bişirilməyən, qızardılmayan və s.) meyvə, tərəvəz və göyərtilərə aiddir. Meyvə və tərəvəzləri axar su altında diqqətlə, xüsusi şotka və ya süngərlə (qabları




yuduğunuzla yox!) yumaq və axırda qaynanmış su ilə yaxalamaq lazımdır. Bu məqsədlə hal-hazırda satışda olan və məhz meyvə və tərəvəzlərin yuyulması üçün nəzərdə tutulan xüsusi yuyucu vasitələrdən də istifadə etmək olar.

Göyərtilərin yuyulması xüsusi diqqət tələb edir. Məhz yaxşı yuyulmayan göyərtilərin qəbul edilməsi nəticəsində insan orqanizminə müxtəlif mikroblar, qurdlar, çox təhlükəli parazitlər (it və pişiklərdən) və s. daxil olur. Bunun qarşısını almaq üçün təmizlənmiş göyərtiləri 20-30 dəqiqə ərzində duzlu suda saxlamaq, daha sonra isə suyu boşaldaraq göyərtiləri axar su altında yaxşı-yaxşı yumaq lazımdır. Becərilərkən göyərtilərə kimyəvi dərmanlar vurulduğu halda onların üzərində qara ləkələr görünür. Belə göyərtiləri daha diqqətlə yumaq tələb olunur.

**5. Nəzarətsiz dərman qəbul edilməsindən imtina edilməsi**

Müvafiq tələbat olmadan və düzgün şəkildə qəbul edilməyən bir çox dərman preparatları mədənin selikli qişasına zərərli təsir göstərirlər. Antibiotiklər, bir sıra ağrıkəsici dərmanlar, antidepressantlar, yuxugətirici dərmanlar, sulfanilamid preparatlar, işlədici dərmanlar və bəzi digər preparatları da bu qrupa aid etmək olar. Əlbəttə ki, biz həyati tələbat olduqda dərman qəbul edilməsinin vacib olduğu hallardan danışmırıq. Əfsuslar olsun ki, insanlar bir çox hallarda özləri-özlərinə "diaqnoz qoyaraq" onlarda olmayan xəstəliklər fikirləşir, özləri onun "müalicəsi" ilə məşğul olur, qəbul etdikləri dərmanların dozasını da istədikləri vaxt artırır və ya azaldırlar! Buna heç bir halda yol vermək olmaz!

Antibiotiklərdən başlayaq. Antibiotiklər heç də zərərsiz deyillər və onları yalnız (!) həkim təyinatı ilə qəbul etmək olar! Antibiotiklər qrip və kəskin virus infeksiyalarını (KVİ) müalicə etmir! Bu xəstəlikləri viruslar törədir. Antibiotiklər isə viruslara heç bir təsir etməyərək, yalnız mikrobları məhv edirlər! Antibiotiklər qızdırmanı aşağı salan dərman vasitələrinə aid deyillər, baş ağrısını, ishalı, öskürəyi də müalicə etmirlər. Xüsusən də antibiotikləri "hər bir dərdin dərmanı" hesab edərək onları tez-tez özlərinə "təyin edən" insanlar bunu mütləq nəzərə almalıdırlar!

Antibiotiklərdən istifadə edilməsi yalnız insanın sağlamlığı və həyatı üçün təhlükəli hesab edilən bakterial mənşəli infeksiyaların (angina, pnevmoniya, vərəm, sepsis və s.) müalicəsi zamanı əsaslandırılmış hesab olunur.

Eyni hal ağrıkəsici dərmanlara da aiddir. Onlardan tez-tez istifadə edilməsi də mədənin selikli qişasına mənfi təsir edir.

Ağrı orqanizmdə hər hansı bir nasazlığın olmasına işarədir. Qarın boşluğunda mənşəyi məlum olmayan ağrıların baş verməsinə xüsusi diqqət yetirmək lazımdır. Ağrıkəsici dərmanın təsiri ilə ağrı hissiyyatını "susdurmaq", xəstəliyin gedişinin "üstüörtülü" qalmasına səbəb olaraq, ona düzgün diaqnoz qoyulmasını da çətinləşdirə bilər.

(davamı gələn sayımızda)

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-



### ABŞ donanması "Northrop Grumman"ın istehsal etdiyi MQ-4C "Triton" sensor sistemi PUA-sını istifadəyə verib

Ordu.az xəbər verir ki, bu barədə donanmanın mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, PUA-nın istifadəyə verilmə mərasimi Kaliforniyadakı dəniz bazasında baş tutub. O, donanmanın ilk pilotsuz patrul eskadrası olan VUP-19-un tərkibinə ələvə edilib.

Qeyd edək ki, "Triton" 24 saat fasiləsiz olaraq, 2000 dəniz mili məsafəyə uça bilir. O, 2,7 milyon kvadrat-mil əraziyə nəzarət imkanına malikdir.

### Böyük Britaniya Hərbi Dəniz Qüvvələrinin gəmiləri "Sea Ceptor" hava hücumundan müdafiə sistemi ilə təchiz edilib

Ordu.az xəbər verir ki, bu barədə Böyük Britaniya müdafiə naziri Gevin Uilyamson bəyan edib.

"Yeni "Sea Ceptor" bizim millətimizi



güclənən təhdidlərdən müdafiə edərək səsdən sürətli raketlərdən rəqibin qırıcılarına qədər hər şeydən müdafiə edəcək", - deyə Uilyamson bildirib.

O, qeyd edib ki, bu sistemlərin quraşdırılması ilə Britaniya dənizdə dünya liderlərindən biri olduğunu nümayiş etdirəcək.

### Norveç Hərbi Hava Qüvvələrinin "Erlann" bazasına ABŞ-dan 3 ədəd F-35A "Lightning-2" qırıcısı gəlib



Ordu.az xəbər verir ki, bu barədə Norveç Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, Norveçə ilk 3 ədəd F-35A qırıcısı 2017-ci il noyabrın 3-də verilib. Ümumilikdə, Norveçin silahlanmasındakı F-35A-ların sayı 6-ya çatıb. Həmin dövrdən etibarən ölkənin Hərbi Hava Qüvvələri bu qırıcıları Norveç iqliminə uyğun şərtlərdə sınaqdan keçiriblər.

Qeyd edək ki, Norveç ümumilikdə, Birləşmiş Ştatlardan 52 ədəd yeni F-35A qırıcısı almağı planlaşdırır.

### Rusiya Strateji Təyinatlı Raket Qoşunlarının üç birləşməsi daşınan "Yars" komplekslərinə keçid edib



Ordu.az xəbər verir ki, bu barədə Rusiya Strateji Təyinatlı Raket Qoşunlarının baş komandanı Sergey Karakayev bəyan edib.

"Biz Teykovsk, Taqil və Novosibirsk raket birləşmələrinin "Yars" raket komplekslərı ilə təchizatını tamamlamışıq", - deyə Karakayev bildirib.

O, qeyd edib ki, həmçinin, İrkutsk, Yoşkar-Olinsk və Kozelsk raket birləşmələrinin silahlandırılması prosesi həyata keçirilir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000